DOI:10.30546/gdu.3.2024

UOT: 781.

# MUSİQİ DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏDBİQİ

***Rüstəmova Sevinc İlham qızı***
***Gəncə Dövlət Universiteti***
***rustamovasevinc5@mail.ru***

**Xülasə:** *Dövlətimiz tərəfindən təhsilə göstərilən diqqət və qayğının nəticəsi olaraq , ölkəmizdə müasir təlim metodlarının tədbiqi layihəsi uğurla həyata keçirilir. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində interaktiv təlimin tədbiq edilməsi təhsil islahatlarının əsas prinsiplərindən biridir. İnteraktiv təlim metodlardan tədris prosesində geniş istifadə olunması daxil olunması şagirdlərin passivliyini aradan qaldırır, onlarda təfəkkür xüsusiyyətlərini, yaradıcılıq formalarını və təlim keyfiyyətini yüksək səviyyəyə çatdırımasına imkan yaradır.*

**Açar sözləri:** məktəbli, musiqi, metod, tərbiyə, incəsənət, inovasiyalar.
**Ключевые слова:** школьник, музыка, метод, воспитание, инновация.
**Key word:** schoolboy, music, method, upbringing, art, innovations

**Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.**
***İlham Əliyev***

Oncə qeyd edək ki, metod (yunanca – nəyəsə yol deməkdir) – müəyyən fəaliyyət sahəsində məqsədə nail olmaq üçün yol deməkdir. Didaktlar təlimin metodlarını iki qrupa bölürlər: 1. Məlumat verici-inkişaf etdirici; 2. Evristik metodlar.

Musiqi təlimi prosesində 3 əsas metodu göstərmək olar:

a) musiqi ümumiləşdirmə metodu;
b) irəliyə getmək və geri qayıtmaq metodu;
c) emosional dramaturji metod.

Tədqiqatçı Sevinc Əliyeva haqlı olaraq qeyd edir ki, XX əsrin sonunda geniş istifadə olunan “fəal təlim” (inteqrativ) və XXI əsrin əvvəllərində geniş yayılan “müasir təlim metodu” sxem şəklində müqayisəli öz əksini belə tapır [1, s. 14].

| İnteraktiv metodlar | Müasir təlim metodları |
|---|---|
| 1. Rollu oyun<br>2. Debatlar<br>3. Yazılı debatlar<br>4. İdeyalar xalisi<br>5. Təqdimat (prezentasiya)<br>6. Qərarlar adası<br>7. Sənədlərlə iş<br>8. Vəziyyət üzrə praktikum<br>9. Qar topası<br>10. Esse<br>11. Sosioloji tədqiqat və s. | 1. İnsert<br>2. Bibo<br>3. Beyin həmləsi<br>4. İstiqamətləndirilmiş mühazirə<br>5. Klaster<br>6. Ziqzaq<br>7. Dəyirmi masa<br>8. Konseptual cədvəl<br>9. T – sxemlər<br>10. Semantik əlaqələrin təhlili<br><br>12. İkihissəli gündəlik və s. |

DOI:10.30546/gdu.3.2024

Qeyd olunan metodları ayrı-ayrı tətbiq etməklə bərabər, onlardan kompleks şəklində də istifadə etmək mümkündür.

Fəal (interaktiv) təlim metodları yeni bilgini müəyyən etmək məqsədi ilə tədqiqatın aparılmasına əsaslanır, bu səbəbdən fəal dərs tədqiqatın aparılma qanunlarına uyğun qurulur. Tədqiqatlarda fəal dərsin mərhələləri aşağıdakılardır:

1. Motivasiya, (Problemin qoyuluşu, fərziyyələrin irəli sürülməsi, tədqiqat sualının verilməsi)

2. Tədqiqatın aparılması ( fərziyyələri yoxlamaq və tədqiqat sualına cavabı tapmaq üçün faktların axtarılması )

**3.** İnformasiya mübadiləsi (alınmış informasiyaların müzakirəsi və öz tədqiqatların təqdimatı)

4. İnformasiya müzakirəsi və təşkili ( informasiyanın müzakirəsi müxtəlif faktlar arasında əlaqənin tapılması, onların təsnifatı)

5. Nəticələr və ümumiləşdirmə ( ümumiləşdirmə və onun fərziyyələrlə müqayisəsi, onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualına cavab)

6. Yaradıcı tədbiq etmə (yeni şəraitdə tədbiq etmə, praktiki məşğələlərin həlli )

7. Qiymətləndirmə və ya refleksiya (şəxsi fəaliyyətin inikası və qiymətləndirilməsi; istənilən mərlədə keçirilə bilər)

"Aktiv metodlar və formalar təhsil problemlərinin həllini təmin edir: müsbət təlim motivasiyasının formalaşdırılması; təlim alanların bilik fəaliyyətinin artırılması; təlim alanların təhsil prosesinə fəal cəlb edilməsi və s. Müasir məktəbdə şagirdlərin hazırlanmasını mükəmməlləşdirmək üçün interaktiv təhsil formalarının tətbiqi ən vacib istiqamətlərdən biridir. Başqa sözlə, şagirdlər təlim prosesində aktiv iştirak üsulu ilə tədqiq etdikləri materialları daha asan qəbul edir, anlayır və yadda saxlayırlar. Beləliklə, əsas metodoloji innovasiyalar interaktiv tədris metodlarının istifadəsi ilə bağlıdır" [2, s. 17].

İnteraktiv təlim zamanı müəllimdən vacib olan metodoloji və psixoloji bilik və bacarıqlar tələb olunur ki, müasir texnologiyalardan istifadə etməyi bacarsın, dərs keçərkən bütün şagirdləri müzakirə prossesinə cəlb etsin, onların psixoloji hazırlığının həyata keçməsini təmin edə bilsin. İnteraktiv tədris formalarından istifadə edən müəllim bunları bilməlidir - İnteraktiv metod ("İnter" - qarşılıqlı, "act" - hərəkət deməkdir) qarşılıqlı hərəkət etmək, söhbət rejimində olmaq, kimsə ilə dialoqa girmək deməkdir. İnteraktiv təlim bilik fəaliyyətini təşkil edən əsas formalardan biridir.

Müasir müəllim metodun seçimini edərkən texnikanın əsas xüsusiyyətlərini diqqətlə öyrənməli və dərsin məqsədlərinə uyğun seçməlidir. Aşagıdakı fəal (interaktiv) təlim metodlarına nəzər salaq.

Beyin həmləsinin müxtəlif növləri mövcuddur: klassik, kölgə, əks, fərdi, servis, lövhədə beyin həmləsi, vizual, solo, breynraytinq. Bunlara ayrı-ayrılıqda nəzər salaq.

"Kölgə" beyin həmləsi -beyin həmləsi zamanı iştirakçılar 2 qrupa bölünür: "aktiv" və "kölgə". Akitv qrup üzvləri müzakirə zamanı yeni fikir və ideyalarını söyləyərək bildirirlər, kölgə qrupun üzvləri isə bu zaman onları müşahidə edir və öz fikirlərini formalaşdırırlar. Sonda ekspertlərə təqdim olunan fikirlərdən ən orijinalı seçilir.

"Əks" beyin həmləsi-Şagirdlərə tamamlanmamış iş nümunəsi təqdim olunur. Müzakirənin iştirakçıları üçün tapşırıq: çatışmazlıqları tapmaq; yeni plan hazırlamaq. Məsələn, şagirdlərə natamam hazırlanmış quş yuvası təqdim olunur. Onlar isə ustanın səhvlərini tapmalı, düzgün quş yuvasının hazırlanma planını qurmalıdırlar.

Fərdi beyin həmləsi-iki mərhələdə keçirilir. Birinci mərhələdə şagirdlər fərdi olaraq öz problemlərini qeyd edir. İkinci mərhələdə isə bu problemlər kollektiv şəkildə müzakirə olunur.

DOI:10.30546/gdu.3.2024

“Servis” beyin həmləsi-özünə tənqidi yanaşmalarına görə ideyalarını həyata keçirə bilməyən insanlara aid olunur və  iştirakçılar iki qrupa bölünür. Birinci qrup öz fikirlərini yazır, ikinci qrupa (tənqidçilərə) təqdim edir, onlar fikirləri müzakirə etdikdən sonra yenidən fikirləri birinci qrupa qaytarır. Belə fikir mübadiləsi daha yaxşı ideyaların yaranmasına imkan verir.

Lövhədə beyin həmləsi-zamanı müəllim sual verir. Şagirdlər bu sualla bağlı plan və fikirlərini bildirirlər, müəllim isə beyin həmləsinin nəticələrini lövhədə qeyd edir.

Viziual beyin həmləsi-mahiyyəti yaranmış yeni ideyaların eskizləşdirilməsidir. İştirakçılar iki qrupa bölünərək, birinci mərhələdə qoyulmuş problemin həlli yolları ilə bağlı illüstrasiyalar hazırlanır. İkinci mərhələdə hər qrupdan bir nəfər lövhəyə çıxaraq hazırladıqları esksizlərlə problemin çıxış yollarını təqdim edir. Sonda hər iki qrupun ən yaxşı eskizlərindən ibarət kollaj hazırlanır.

Solo beyin həmləsi-adətən fərdi şəkildə aparırlar.  Müəllim ümumi bir sual verir, şagirdlər isə mövzu ilə bağlı materialları dərslikdən toplayaraq dəftərdə və ya xüsusi kartlarda qeyd edirlər, yekunda isə cavablarla bağlı müzakirələr aparılır.

“Breynraytinq” beyin həmləsi- klassik beyin həmləsindən fərqi olaraq, burada bütün iştirakçılar öz ideyalarını bir vərəqdə yazır, digərinə ötürür. O isə oxuduqdan sonra fikrin davamını yazır. Bu prosses 15 dəqiqəyə yekunlaşmalıdır. Müzakirə və tənqidlər isə sonuncu yazıdan sonra başlayır.

“BİBÖ (nəyi bilirik, nəyi bilmək istəyirik, nəyi öyrəndik və nəyi öyrənməliyik) şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir, mövzu, problem barədə düşünməsini təmin edir” [3, s. 68].

| Biz artıq nəyi bilirik | Biz nəyi bilmək istəyirik | Biz nə öyrəndik və hələ nə öyrənməliyik |
|---|---|---|
| | | |

**Auksion**-təlim metodu cisim və hadisələrin xüsusiyyətlərini öyrənməkdən ibarətdir. Təhlil prosesini inkişaf etdirməklə yanaşı, dinləmə mədəniyyətini də, inkişaf etdirir. Bu metod həm induktiv, həm də deduktiv dərslərdə istifadə edilir. Dərsin motivasiya və nəticələrin çıxarılması mərhələsində aparılmaqla İş forması, böyük qrupda iş, vaxt 7- 8 dəqiqə, resurslar; - əşyanın özü, şəkil və s.

Metodun öyrədilməsi qaydası: Müəllim öyrənilən cisim və ya hadisəni müəyyən edir və uşaqlara auksionun keçirilmə qaydaları haqqında məlumatlarır, sonra uşaqlar növbə ilə cisim və hadisə haqqında fikir söyləyir. Hər bir fikirdən sonra müəllim sayır “Bir, iki.....”. Bu zaman başqa uşaq öz fikrini söyləyə bilər. Beləliklə, sonuncu fikir söyləyən uşaq qalib sayılır. Məşğələ zamanı uşaqlar diqqətli olmalı, birbirini dinləməlidirlər ki, fikirlər təkrarlanmasın.

**Karusel**-qısa vaxt ərzində interaktiv şəkildə mövzunu əhatəli keçməyə imkan yaradır. Hər bir şagird bütün məsələlərin həllində iştirak edir;

Məntiqi, tənqidi və müstəqil düşünməni inkişaf etdirir;

Fərdi və qrup məsuliyyətini inkişaf etdirir;

Ünsiyyət və qrupdaxili qarşılıqlı əlaqə;

Ümumtəhsil Musiqi dərsliklərinə qoyulan tələblərə əsasən, tədris materialının planlaşdırılmasında, yeni təlim metodlarından geniş istifadə edilmiş və onlardan istifadə olunaraq tədbiqi öz əksini tapmışdır, nümunə olaraq “3-cü sinif üçün  Musiqi fənni üzə dərsliyin” metodik vəsaiti,  5-ci mövzuna diqqət yetirək, “Melodiya musiqinin canıdır”

DOI:10.30546/gdu.3.2024

İş üsullu: Beyin həmləsi, diskusiya, Venn diaqramı

Dərsin mərhələləri:

1. Motivasiya-10 dəq.

Problem vəziyyəti yaratmaq üçün uşaqların II sinifdə bildikləri "Çal oyna" Azərbaycan xalq mahnısı səsləndirilir və onun melodiyasını şagirdlər notlatla oxuyurlar. Sonra sinifə suallarla müraciət olunur:

-Uşaqlar, "Çal oyna" Azərbaycan xalq mahnısını notlarla oxuyarkən onu müşayiət edən bir musiqi aləti oldumu?

-Dinlədiyiniz "Çal oyna" mahnısı ilə notlarını oxuduğunuz mahnının ifası arasında hansı fərq var?

Şagirdlər suallı cavablandırırlar.

Tədqiqat sualı:

-Melodiyanın musiqidə rolu nədən ibarətdir?

2. Tədqiqatın aparılması-10 dəq.

Sinif qruplara bölünür. Əvvəlcə I qrup "Çal oyna" mahnısını müşayiət ilə oxuyur, sonra II qrup həmin mahnının sözlərini müşayətsiz ifa edir. Daha sonra müəllim "Çal oyna" mahnısının yaınız musiqisini çalır. Bundan sonra hər qrupa Venn diaqramı çəkilmiş iş vərəqləri paylanılır.




Tapşırıq: "Çal oyna" Azərbaycan xalq mahnısının müşayiətli və müşayiətsiz ifasının fərqli və oxşar cəhətlərini müəyyənləşdirib Venn diaqramında qeyd edin.

Eyni qayda ilə "Çal oyna" mahnısını uşaqların ikinci sinifdən bildikləri "Qaladan qalaya" Azərbaycan xalq mahnısı ilə muqayisə edilə bilər.

3. İnformasiya mübadiləsi və müzakirəsi- 8 dəq.

Melodiyanın rolu mahnı ifaçılığında, ümumiyyətlə, musiqidə bir ifadə vasitəsi kimi müəyyənləşdirilir.

DOI:10.30546/gdu.3.2024

Nəticələr və ümumiləşdirmə - 3 dəq.; 5.Yaradıcı tədbiq etmə - 12 dəq.; Tapşırıq; 6. Qiymətləndirmə və refleksiya. [4, s. 13].

3-cü sinif üçün "Musiqi" fənni üzə dərsliyin 19-cu mövzusu "Dəniz obrazı Azərbaycan və klassik Rus bəstəkarlarının yaradıcılığında" adlanır və bu mövzusunn tədrisində aşağıdakı iş üsullarından istifadə nəzərdə tutulmuşdur: Beyin həmləsi, diskussiya, rəsam assosiayası, Venn diaqramı və s. [4, s. 28].

7-ci sinif üçün "Musiqi" fənni üzə dərsliyin metodik vəsaitinin "Musiqi obrazında xarakter dəyişikliyi" adlı 2-ci mövzusunun tədrisində isə beyin həmləsi, müzakirə, müqayisə iş üsullarından istifadə edilməsi tövsiyə olunur [5, s. 16].

Nümunələrdən də, göründüyü kimi ümumtəhsil məktəblərimizdə "Musiqi" ilə əlaqədar dərslərin maraqlı keçməsi üçün müxtəlif metodlardan istifadə edilir ki, bu da kombinə edilmiş dərslərin səmərəliliyini, şagirdlərin, tələbələrin musiqiyə olan maraqlarını artırır.

Pedaqoji təcrübənin öyrənilməsi göstərir ki, müəllimlər pedaqoji texnalogiyalardan istifadə zamanı müxtəlif tədris metodlarından faydalanaraq, dərslərin mərhələləri, öyrətmə üsulları, məzmun standartlarının reallaşdırma bacarıqları müəllimlər tərəfindən fərqli yollarla tədbiq olunur. Tədbiq olunan pedaqoji texnalogiyaların metodikasına yaradıcı müəllimlər müəyyən dəyişiklikər edib onu mövcud tədris sisteminə uyğunlaşdırırlar.

İnformasiya Cəmiyyətinin ən mühüm tələblərindən biri də müasir inkişafa uyğun yaradıcı, informasiya-kommunikasiya vasitələrindən səmərəli istifadə edə bilən vətəndaşların yetişdirilməsidir. Məktəblər hazırda bu vəzifənin öhdəsindən asanlıqla gəlirlər. Bölgələrdə olan tədris müəssisələrinin də hazırda maddi-texniki baza təminatı formalaşdırılmaqdadır. Müəllimlər müxtəlif öyrədici kurslarda iştirak edərək öz peşəkarlıqlarını inkişaf etdirirlər.

Aparılan araşdırmalar göstərir ki, müasir pedaqoji texnologiyalardan, yeni təlim metodlarından istifadə olunması, təhsili inkişaf etdirən vacib məsələlərdən biridir. Eyni zamanda pedaqoji texnologiyalardan düzgün istifadə olunmalı və o, inkişaf etmiş təhsil-tədris prosesinin vasitələrindən biri olmalıdır. Pedaqoji texnologiyalardan istifadə həm təhsilalanların, həm də təhsilverənlərin keyfiyyət göstəricilərindən biridir və texnologiyalar daim tədris prosesinin mərkəzində dayanmaqla onun inkişafını təmin edir.

## ***Ədəbiyyat***


1. Axundova G.Ə. "Musiqinin tədrisində yeni pedaqoji texnalogiyalar"
2. Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyət və təhsilinin aktual problemləri №2, 2018, (13-17 s.) İSSN2221-7576
3. Əliyeva S.S. "Musiqi kurikulumu əsasında sinif müəllimlərinin hazırlığının
4. yüksədilməsi üzrə işin sistemi. 5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqi tədrisi metodikası) pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, "Mütəcim" 2013, 36 s.
5. Veysova Z. "Fəal/İnteraktiv Təlim" Müəllimlər üçün vəsait. Birləşmiş Millətlər Təşkillatənın Uşaq Fondu (UNICEF) 2007, 155 s.
6. Rəcəbova N., Quliyeva Ş., Əliyeva Z. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün "Musiqi" dərsliyi. Bakı, Şərq-Qərb, 2022, 64 s. URL:https://www.trims.edu.az /site/ resource.php?id=1473
7. Rəcəbov O., Kazımov N., Nuruqızı S. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Musiqi" dərsliyi. Bakı, Şərq-Qərb, 2022, 96 s. URL: https://www.trims.edu.az/site/ resource.php?id=1474

DOI:10.30546/gdu.3.2024

## ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ МУЗЫКИ

***Рустамова Севиндж Илхамовна***

***Резюме***

В общеобразовательных школах нашей страны успешно реализуется проект пропаганды и применения современных методов обучения. Внедрение интерактивного обучения в общеобразовательных школах, является одним из основных принципов образовательных реформ Азербайджанской Республики. Включение интерактивного метода обучения в учебный процесс исключает пассивность обучающихся, создаёт возможность доведения мышления и качества образования учащихся школ до высокого уровня.

## APPLICATION OF INTERAKTIVE LEARNING METHODS IN MUSOC LESSONS

***Rustamova Sevinc Ilham***

***Summary***

As a result of the attention and care given to education by our state, the imlementation plan of modern training methods is successfully imlemented in our country. Implementation of interactive training in secondary schools of the Republic of Azerbaijan is one of the main principles of educational reforms. The inclusion of the wide use of interactive teaching metdhods in the teaching process eliminates the passivity of studens, enables them to raise them to thinkig characteristics, creative forms and the quality of education to a high level.

***Rəyçi: Şabanova S.A.***
***Musiqi fənləri kafedrasının 12 iyun 2024-cü il tarixli iclasın 20 saylı protokolu***
***Daxil olma tarixi 26 sentyabr 2024-cü il***